UOT: 930.25.
DOI: https://doi.org/10.30546/19063.2026.06.5311

MİRZƏ FƏTƏLİ AXUNDZADƏNİN YENİ ƏLİFBA LAYİHƏSİ (AMEA MƏHƏMMƏD FÜZULİ ADINA ƏLYAZMALAR İNSTİTUTUNUN ŞƏXSİ ARXİV MATERİALLARI ƏSASINDA)

ORUC İSLAM OĞLU QULİYEV
Mərkəzi Elmi Kitabxananın direktor müavini,
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun
doktorantı, tarix üzrə fəlsəfə doktoru,
Bakı ş., İstiqlaliyyət küçəsi 26, AZ 1001
E-mail: oruj_guliev@mail.ru
https://orcid.org/0009-0004-8463-4517

XÜLASƏ

Məqalədə XIX əsr Azərbaycan maarifçilik hərəkatının görkəmli nümayəndəsi Mirzə Fətəli Axundzadənin əlifba islahatı ilə bağlı fəaliyyəti və bu istiqamətdə irəli sürdüyü ideyalar araşdırılır. Tədqiqatda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan M.F.Axundzadənin 2 nömrəli şəxsi arxiv fondunda saxlanılan əlifba layihələri, qrammatika qaydaları, bu mövzuda yazışmaları ehtiva edən məktublar və digər sənədlər əsas mənbə kimi təhlilə cəlb edilmişdir. Araşdırmada M.F.Axundzadənin ərəb qrafikasının Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırılması, yazı sisteminin sadələşdirilməsi və savadlanmanın asanlaşdırılması istiqamətində irəli sürdüyü prinsiplər nəzərdən keçirilir. Məqalədə həmçinin bu əlifba islahatı təşəbbüslərinin 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayda müzakirə olunan əlifba məsələləri və XX əsrdə Azərbaycanda baş vermiş əlifba dəyişiklikləri ilə əlaqəsi müəyyənləşdirilir. Tədqiqatın nəticələri göstərir ki, M.F.Axundzadənin əlifba islahatı ideyaları yalnız dövrün yazı problemlərinin həllinə yönəlmiş təşəbbüs deyil, həm də maarifçilik, savadlanma və mədəni modernləşmə konsepsiyasının mühüm tərkib hissəsi olmuşdur. Onun şəxsi arxivində qorunan sənədlər isə bu ideyaların formalaşma və inkişaf mərhələlərinin öyrənilməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Açar sözlər: *Mirzə Fətəli Axundzadə, şəxsi arxiv, əlifba islahatı, ərəb əlifbası, latın qrafikası, yeni əlifba.*

GİRİŞ

XIX əsr Azərbaycan ictimai və mədəni fikir tarixində maarifçilik hərəkatının formalaşması və inkişafı mühüm mərhələ təşkil edir. Bu dövrdə cəmiyyətin dünyəviləşməsi, təhsilin və savadlılığın genişləndirilməsi, milli mədəniyyətin inkişafı və yazı sisteminin təkmilləşdirilməsi kimi məsələlər ziyalıların diqqət mərkəzində olmuşdur. Sözügedən proseslərin formalaşmasında M.F.Axundzadənin yaradıcılığı və ictimai-mədəni fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Çünki o, yalnız Azərbaycan dramaturgiyasının və realist ədəbi düşüncənin inkişafında mühüm rol oynayan mütəfəkkir deyil, həm də əlifba islahatı ideyasını sistemli şəkildə irəli sürən və onun praktiki həyata keçirilməsi üçün ardıcıl təşəbbüslər göstərən maarifçi ziyalı olmuşdur. Mirzə Fətəlinin ərəb qrafikasının Azərbaycan dilinin fonetik xüsusiyyətlərinə uyğunlaşdırılması, yazının sadələşdirilməsi və yeni əlifbanın yaradılması ilə bağlı layihələri XIX əsr Azərbaycan dil və yazı mədəniyyəti tarixində mühüm yer tutur.

M.F.Axundzadənin əlifba islahatı ilə bağlı fəaliyyətinin öyrənilməsi baxımından AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan 2 nömrəli şəxsi arxiv fondu xüsusi elmi əhəmiyyətə malikdir. Fond materiallarında mütəfəkkirin müxtəlif əlifba layihələri, qrammatika qaydaları, məktubları, sənədləri və digər əlyazmaları qorunur. Bu mənbələr M.F.Axundzadənin əlifba islahatı ilə bağlı baxışlarının formalaşma mərhələlərini və layihələrinin xüsusiyyətlərini araşdırmaq üçün mühüm faktoloji baza yaradır.

Məqalənin əsas məqsədi M.F.Axundzadənin əlifba islahatı ilə bağlı ideya və layihələrini şəxsi arxiv materialları əsasında araşdırmaq, onun islahat konsepsiyasının əsas prinsiplərini müəyyənləşdirmək və bu təşəbbüslərin sonrakı əlifba dəyişiklikləri, xüsusilə Birinci Türkoloji Qurultay və XX əsrdə Azərbaycanda həyata keçirilən əlifba islahatları ilə əlaqəsini nəzərdən keçirməkdir. Bu məqsədlə arxiv sənədləri, əlifba layihələri və mövzu ilə bağlı elmi ədəbiyyat müqayisəli-tarixi və mənbəşünaslıq yanaşmaları əsasında təhlil edilmişdir.

Mövzunun tədqiqi M.F.Axundzadənin əlifba islahatı ideyalarının yalnız öz dövrünün yazı problemlərinin həlli baxımından deyil, Azərbaycan dilinin, təhsilinin və milli mədəni inkişafının sonrakı istiqamətlərinə təsiri baxımından da əhəmiyyət daşıdığını göstərmək üçün də aktuallıq kəsb edir.

ƏSAS MƏTN

Azərbaycan maarifçilik hərəkatının banisi, Yaxın Şərqdə dramaturgiyanın, bədii nəsrin və realist ədəbi tənqidin əsasını qoyan böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə (1812-1878) mədrəsə təhsili almış, ərəb və fars dillərini, Şərq poetikasını və islam fəlsəfəsini dərindən mənimsəmiş, sonralar Tiflis şəhərində Qafqaz Canişinliyində Şərq dilləri üzrə mütərcim kimi dövlət qulluğunda çalışmışdır. Bu müddət ərzində o, ərəb qrafikasının türk dilləri üçün uyğun olmadığını və konsonant yazı sistemi olduğu üçün mənimsənilməsinin çətin olduğunu anlamışdı. Ona görə də Mirzə Fətəli əlifba islahatı ideyasının fəal təbliğatçısı kimi çıxış etmişdir. Bu təbliğat işi sadə etirazlardan ibarət olmamış, konseptual xarakter daşımışdır.

Ədibin zəngin yaradıcılıq irsinin, fəlsəfi dünyagörüşünün və ictimai-siyasi fəaliyyətinin öyrənilməsi baxımından xüsusi elmi əhəmiyyət daşıyan AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan 2 nömrəli şəxsi arxiv fondunda böyük mütəfəkkirin həyat və yaradıcılığı, fəlsəfi görüşləri, ədəbi-ictimai fəaliyyəti, eləcə də elmi və epistolyar irsi ilə bağlı arxiv materialları mühafizə olunur. Bu fond XIX əsr Azərbaycan ədəbi, fəlsəfi və ictimai fikir tarixinin, xüsusilə də Mirzə Fətəlinin çoxşaxəli fəaliyyətinin araşdırılması üçün mühüm mənbə bazası hesab edilə bilər.

"Zəngin arxivə malik olan Mirzə Fətəli, sənədlərinin əksəriyyətini özü səliqəyə salaraq, bir neçə dəfə onların üzünü köçürmüşdür. Təsadüfi deyil ki, böyük ədibimiz Yusif Vəzir Çəmənzəminli Azərbaycan müəlliflərindən Mirzə Fətəli Axundzadənin, rus müəlliflərindən isə İ.S.Turgenevin arxiv tərtib etməsini təqdirəlayiq hesab etmiş və arxiv toplamağı yazıçı mədəniyyətinin meyarı olduğunu bildirmişdir". [13, s.38]

Fondda M.F.Axundzadənin bədii əsərləri, məktublar, müxtəlif sənədlər, fotolar və s. saxlanılır. Arxivin izahlı təsvirini Ağəmi İbrahimov və Mehri Məmmədova hazırlamışdır [11].

XIX əsr Azərbaycan maarifçilik düşüncəsinin formalaşmasında mühüm rol oynamış M.F.Axundzadənin fəaliyyəti yalnız dramaturgiya və bədii yaradıcılıqla məhdudlaşmamış, eyni zamanda dil, yazı mədəniyyəti və ictimai-mədəni islahatlar sahəsini də əhatə etmişdir. Onun irəli sürdüyü əlifba islahatı ideyaları Azərbaycan cəmiyyətinin dünyəvi və modern dəyərlər əsasında inkişaf etdirilməsi istiqamətində mühüm təşəbbüslərdən biri kimi qiymətləndirilir.

Şəxsi arxivdə yeni əlifba ilə bağlı olduqca əhəmiyyətli sənədlər, məktublar və yeni əlifba layihəsinin nüsxələri qorunmaqdadır. Bu layihə arxivdə 447 saxlama vahidi ilə qorunur [5; 6; 7; 8; 9]. M.F.Axundzadə təklif edirdi ki, hər bir səs yazıda mümkün qədər ayrıca hərflə işarə olunsun. O, heç bir ikiləşməni qəbul etmir, dilimizin fonetik sistemindəki 9 saitin hər biri üçün müstəqil hərfin yazılmasının daha əlverişli olmasını düşünürdü.

Arxivdə həmçinin yeni əlifbanın öyrənilməsinin qrammatik qanunları da mühafizə olunmaqdadır [4; 10]. Layihə müəllifi hərfüstü və hərfaltı işarə və hərəkələrin aradan qaldırılması üçün çalışırdı. O, hərflərin həm özündən sonra, həm də özündən əvvəlki hərflərlə birləşməsini də labüd hesab edirdi. Bu zaman söz sərhədinin yazıda aydın seçiləcəyini əsaslandırırdı.

Mütəfəkkirin layihəsində əlifbanın qrafik baxımdan sadələşdirilməsi də xüsusi əhəmiyyət daşıyırdı. O, yazı prosesini mürəkkəbləşdirən nöqtə və digər əlavə qrafik elementlərin mümkün qədər aradan qaldırılmasını, hərflərin daha aydın və asan qavranılan formada təqdim edilməsini təklif edirdi. M.F.Axundzadə hesab edirdi ki, yazı sisteminin struktur baxımından sadələşdirilməsi həm oxu prosesini sürətləndirə, həm də yazının öyrənilməsini asanlaşdıra bilər.

M.F.Axundzadənin ərəb qrafikası əsasında mövcud olan yazı sisteminin təkmilləşdirilməsi ilə bağlı düşüncələri 1850-ci illərdən etibarən daha sistemli xarakter almağa başlamışdır. Həmin dövrdə Tiflisdə tərcüməçi kimi fəaliyyət göstərən mütəfəkkir Azərbaycan dilinin fonetik xüsusiyyətləri ilə ərəb qrafikasının imkanları arasındakı uyğunsuzluqları daha intensiv müşahidə etmiş və yazı sisteminin dilin daxili qanunauyğunluqlarına uyğunlaşdırılması məsələsini gündəmə gətirmişdir.

M.F.Axundzadənin əlifba islahatı konsepsiyasının əsasını fonetik prinsip təşkil edirdi. Mütəfəkkirin qənaətinə görə, ərəb əlifbasının Azərbaycan dilinin fonetik sistemini tam və dəqiq əks etdirmək imkanları məhdud idi. Xüsusilə sait səslərin ifadəsində mövcud qrafik sistemin yaratdığı çətinliklər Azərbaycan dilində sözlərin düzgün oxunmasına və yazılı şəkildə adekvat ifadəsinə mane olurdu. Buna görə Mirzə Fətəli əlifbanın fonetik baxımdan təkmilləşdirilməsini savadlanmanın və yazı mədəniyyətinin inkişafının mühüm şərtlərindən biri kimi nəzərdən keçirirdi.

"1857-ci ildə yazılan "Ərəbcə, farsca və türkcədən ibarət olan islam dillərinin yazısı üçün yeni əlifba" yazısında o, əlifbada yenilik yaratmağın lazımlılığını bildirir, bu ideyada, yəni əlifbanı dəyişmək işində hər kəsdən qabağa düşdüyünü və bir ilk olduğunu vurğulayır. Əslində bu onun mühitinə, ətalətə, despotizmə qarşı apardığı qorxulu mübarizələrdən

biri idi. Əgər "böyük mütəfəkkir-ədibin yaratdığı "Kəmalüddövlə məktubları" Azərbaycan ictimai fikir tarixində ilk fəlsəfi traktat kimi mühüm yer" tutaraq "Azərbaycan ədəbiyyatında hər tezisindən "qan qoxusu" gələn çox cəsarətli bir əsər" (Həbibbəyli 2018: 141) timsalında rol alırdısa, onun əlifba islahatı cəmiyyətin müasir inkişafının təmin edilməsi yönündə atdığı ən cəsarətli mövqe idi" [14, s.21-22].

Beləliklə, M.F.Axundzadənin əlifba islahatı ilə bağlı təşəbbüsləri yalnız texniki xarakter daşımır, onun daha geniş maarifçilik və modernləşmə konsepsiyasının tərkib hissəsini təşkil edirdi. Mütəfəkkir yazı sisteminin təkmilləşdirilməsini cəmiyyətin savadlanması, təhsilin genişləndirilməsi və milli mədəniyyətin inkişafı baxımından mühüm vasitə hesab edirdi. Bu baxımdan onun əlifba məsələsinə dair baxışları XIX əsr Azərbaycan ictimai-fikir tarixində dil və yazı islahatlarının nəzəri əsaslarının formalaşmasına mühüm təsir göstərmişdir.

M.F.Axundzadə hazırladığı əlifba layihəsinin elmi baxımdan qiymətləndirilməsi və müxtəlif mütəxəssislərin fikirlərinin öyrənilməsi məqsədilə onu Peterburq, Paris, London, Berlin və digər Avropa şəhərlərinə göndərmişdir. Əlifba islahatının zəruriliyini xüsusilə türk ziyalılarına və alimlərinə əsaslandırmaq məqsədilə 1863-cü ildə İstanbula səfər edən mütəfəkkir burada hazırladığı yeni əlifba layihəsini şəxsən təqdim etmişdir.

Bu proseslə bağlı sənədlər və yazışmalar da ədibin arxivində saxlanılmaqdadır [1; 2; 3]. Mirzə Fətəli A.F.Kurzenşteynə ünvanladığı 12 noyabr 1857-ci il tarixli məktubunda ərəb əlifbasının fikrin çevik ifadəsi üçün əlverişli olmamasından, akademik Dorna yazdığı 28 mart 1860-cı il tarixli cavab məktubunda isə özünün hazırladığı əlifba layihəsinin alternativ yazı sistemi kimi sınaqdan keçirilməsini təklif edirdi.

M.F.Axundzadənin ərəb qrafikası əsasında mövcud olan əlifbanın islahına dair irəli sürdüyü layihə qəbul edilməsə də, mütəfəkkir bu uğursuzluqdan sonra ruhdan düşməmiş və ömrünün sonunadək maarifçilik ideyalarının, xüsusilə də təhsil və mədəni tərəqqinin inkişafına xidmət edən təşəbbüslərini davam etdirmişdir. Onun əlifba islahatı istiqamətində irəli sürdüyü ideyalar sonrakı dövrlərdə türk xalqları arasında yazı sisteminin yeniləşdirilməsi ilə bağlı gedən müzakirələrə əhəmiyyətli təsir göstərmişdir.

1878-ci ildən etibarən Mirzə Fətəli ərəb qrafikasının islahatı istiqamətində apardığı əvvəlki təşəbbüslərdən müəyyən mənada uzaqlaşaraq, daha praktik və alternativ əlifba layihələrinin hazırlanmasına yönəlmişdir. Bu mərhələdə o, latın qrafikası əsasında formalaşdırılmış, eyni zamanda bəzi kiril hərflərinin daxil edildiyi yeni yazı sisteminin tətbiqi imkanlarını araşdırmışdır.

M.F.Axundzadənin əsas məqsədi cəmiyyətin müxtəlif təbəqələrinin yazı sisteminə keçid prosesini mərhələli şəkildə həyata keçirmək və ənənəvi yazı ilə yeni əlifbanın paralel istifadəsinə imkan yaratmaq idi. Onun fikrincə, ənənəvi ərəb yazısından istifadəni davam etdirmək istəyənlərə bu imkanı saxlamaqla yanaşı, yeni əlifbanı qəbul edənlərin də ondan sərbəst şəkildə yararlanmasına şərait yaradılmalı idi. Lakin hazırlanmış layihənin müəyyən üstünlüklərinə baxmayaraq, Rusiya imperiyasının hakimiyyət orqanları onun tətbiqinə razılıq verməmişdir. Nəticədə M.F.Axundzadənin növbəti əlifba təşəbbüsü də rəsmi şəkildə qəbul edilməmiş və layihənin həyata keçirilməsi mümkün olmamışdır. Bununla belə, onun yazı islahatı sahəsində ardıcıl fəaliyyəti sonrakı dövrlərdə Azərbaycanda əlifba məsələsinin elmi və ictimai müzakirələrə çıxarılmasında mühüm rol oynamışdır.

Bu baxımdan 26 fevral-5 mart 1926-cı il tarixlərində Bakıda keçirilmiş Birinci Türkoloji Qurultay M.F.Axundzadənin uzun illər əvvəl irəli sürdüyü əlifba islahatı ideyalarının reallaşması istiqamətində mühüm tarixi mərhələ kimi qiymətləndirilə bilər. Qurultay çərçivəsində aparılan müzakirələrdə ərəb qrafikasının yaratdığı problemlər və türk xalqlarının yazı sistemlərinin müasirləşdirilməsi məsələsi xüsusi diqqət mərkəzində olmuşdur. Geniş və prinsipial müzakirələr nəticəsində türk xalqları üçün latın qrafikalı əlifbaya keçidin məqsədəuyğunluğu ilə bağlı tövsiyə xarakterli qərar qəbul edilmişdir.

Qurultayın gündəliyi yalnız əlifba islahatı ilə məhdudlaşmamış, türk xalqlarının dil, təhsil və mədəniyyət sahələrində qarşılaşdıqları problemləri də əhatə etmişdir. Bu çərçivədə ana dilinin məktəblərdə tədrisinin müasir metodlar əsasında təşkili, milli dərsliklərin hazırlanması, türk xalqlarının tarixi və mədəni irsinin, o cümlədən şifahi xalq yaradıcılığı nümunələrinin və dastanların sistemli şəkildə öyrənilməsi məsələləri müzakirəyə çıxarılmışdır. Eyni zamanda, türk dilləri arasında elmi və terminoloji əlaqələrin gücləndirilməsi, ortaq elmi terminologiyanın formalaşdırılması, eləcə də imla və qrammatika normalarının müəyyən ümumi prinsiplər əsasında uyğunlaşdırılması istiqamətində fikir mübadiləsi aparılmışdır.

Beləliklə, Birinci Türkoloji Qurultayda müzakirə edilən məsələlər M.F.Axundzadənin XIX əsrdə irəli sürdüyü əlifba və maarifçilik ideyalarının daha geniş türkoloji müstəvidə davam etdirildiyini göstərir. Bu

baxımdan M.F.Axundzadənin əlifba islahatı təşəbbüsü yalnız dövrünün konkret ehtiyaclarına cavab verən bir layihə deyil, türk xalqlarının yazı, dil və mədəni inkişafının modernləşdirilməsi istiqamətində sonrakı proseslərə təsir göstərən mühüm intellektual təşəbbüs kimi dəyərləndirilə bilər.

Qurultayda müzakirə edilən ən mühüm məsələlərdən biri, bəlkə də, ən önəmlisi türk xalqlarının fonetik xüsusiyyətlərinə uyğun gəlməyən ərəb əlifbasının tədricən aradan qaldırılması və onun əvəzinə latın, yaxud kiril qrafikası əsasında hazırlanmış əlifbaya keçidin həyata keçirilməsi idi. Ərəb əlifbasından latın qrafikasına keçid ideyası əslində daha əvvəl də, 1922-ci ildə Səmədağa Ağamalıoğlunun Vladimir İliç Leninlə görüşü zamanı gündəmə gətirilmişdi. Buna baxmayaraq, əlifba islahatı və latın qrafikasına keçid məsələsi 1924-cü ildən etibarən daha geniş və ciddi şəkildə müzakirə edilməyə başlanmışdır.

"I Türkoloji qurultayda ən mühüm problem kimi irəli sürülən yeni əlifbaya keçid türk xalqlarının cəmiyyətə inteqrasiyasını təmin etməli idi. Lakin bu əlifbanın qəbulu həm də türk xalqlarını birləşdirmək gücünə malik ortaq türk əlifbası statusunu qazanmış olurdu. Türk xalqlarının "ortaq" əlifbasının müəyyənləşdirilməsi bu xalqların anlaşması, tarixi, dili, mədəniyyətinin öyrənilməsi, birləşdiricilik arzularının, strategiya və missiyasının təməli idi. Görünür buna görə latın qrafikalı əlifbanın qəbulu məsələsi ətrafında gedən müzakirələrə diqqət böyük idi. Ərəb əlifbasından latın və ya kiril əsaslı əlifbaya keçid məsələsi üzərində müzakirələr latın qrafikalı əlifbaya keçid qərarı ilə nəticələndi" [12, s.576-577].

1920-ci illərin sonlarından etibarən Azərbaycan dilinin yazı sistemində mühüm dəyişikliklər həyata keçirilməyə başlanmışdır. 1929-cu ildə sovet hakimiyyətinin qərarı ilə ərəb qrafikasından istifadəyə son qoyularaq latın qrafikalı əlifbaya keçid təmin edilmişdir. Bu proses yalnız Azərbaycanla məhdudlaşmamış, türk xalqlarının yazı sistemlərinin yenidən qurulması istiqamətində həyata keçirilən daha geniş dil siyasətinin tərkib hissəsinə çevrilmişdir. Azərbaycanda latın qrafikasına keçiddən bir neçə il sonra, 1928-ci ildə Türkiyədə də əlifba islahatı həyata keçirilmiş və latın qrafikalı türk əlifbasının tətbiqinə başlanılmışdır.

Lakin 1930-cu illərin sonlarında sovet milli siyasətində baş verən dəyişikliklər nəticəsində latın qrafikasından istifadə məhdudlaşdırılmışdır. 1939-cu ildə Azərbaycanda latın qrafikalı əlifbanın kiril qrafikası ilə əvəzlənməsi həyata keçirilmişdir. Bu dəyişiklik nəticəsində Azərbaycan dilinin yazı sistemi yenidən dəyişdirilmiş, əvvəlki latın qrafikalı yazı ənənəsi faktiki olaraq aradan qaldırılmışdır.

Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi ilə milli yazı sisteminin yenidən nəzərdən keçirilməsi məsələsi də gündəmə gəlmişdir. 1990-cı ildən etibarən Azərbaycan dilinin latın qrafikalı əlifbaya keçirilməsi istiqamətində müxtəlif təşəbbüslər irəli sürülmüşdür. Bu prosesdə görkəmli dilçi alim Afad Qurbanovun fəaliyyəti xüsusi əhəmiyyət daşımışdır. O, latın qrafikalı əlifbaya keçidin zəruriliyini dilçilik baxımından əsaslandırmış, yeni əlifbanın elmi prinsiplər əsasında hazırlanması istiqamətində mühüm təşəbbüslərlə çıxış etmişdir.

Əlifba islahatının institusional əsaslarının formalaşdırılması məqsədilə 1 avqust 1990-cı ildə Azərbaycan Əlifba Komissiyası yaradılmışdır. Afad Qurbanovun təşəbbüsü ilə fəaliyyətə başlayan komissiyaya onun əlifba məsələləri üzrə elmi araşdırmaları və mütəxəssis kimi təcrübəsi nəzərə alınmaqla sədrliyi həvalə edilmişdir. Komissiyanın fəaliyyəti nəticəsində Azərbaycan dilinin fonetik və qrafik xüsusiyyətlərini nəzərə alan yeni əlifba layihəsi hazırlanmışdır. Həmin günün xalqımız üçün əhəmiyyətini nəzərə alan Ulu Öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli Fərmanı ilə 1 avqust "Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" kimi təsis edilmişdir.

Beləliklə, XX əsr ərzində Azərbaycan əlifbasının ərəb, latın və kiril qrafikaları arasında ardıcıl şəkildə dəyişməsi ölkənin siyasi və ictimai-tarixi prosesləri ilə sıx bağlı olmuşdur. Müstəqillik dövründə həyata keçirilən latın qrafikasına qayıdış isə milli dil və yazı sisteminin dövlətçilik prinsipləri əsasında yenidən formalaşdırılması istiqamətində mühüm addım kimi qiymətləndirilə bilər. Azərbaycan Əlifba Komissiyası tərəfindən hazırlanmış yeni əlifbanın 1992-ci ildə təsdiq edilərək tətbiqinə başlanılması bu prosesin mühüm mərhələlərindən birini təşkil etmişdir. Lakin yeni əlifbaya keçid tədbirlərinin ardıcıl xarakter daşımaması bu prosesin ləngiməsinə səbəb olmuşdur. Ona görə də Ulu Öndər Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərmanı ilə latın qrafikasının tətbiqi işinin yaxşılaşdırılması üçün kompleks planlar həyata keçirildi.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi məqsədyönlü siyasi kursun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən Ana dilimizin qorunması və inkişafı istiqamətində işlər uğurla davam etdirildi. Dövlət başçısının 2004-cü il 12 yanvar tarixində "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", həmin ilin 14 yanvarında "Azərbaycan Milli Ensiklopedi-

yasının nəşri haqqında", 2007-ci il 30 dekabrda isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında" imzaladığı sərəncamlar Azərbaycan dilinin ictimai həyatın müxtəlif sahələrində daha geniş və hərtərəfli tətbiqinin təmin olunmasına mühüm şərait yaratdı. M.F.Axundzadənin XIX yüzillikdə həyata keçirmək istədiyi, lakin ümidsiz bir arzu kimi qalan əlifba islahatı XXI əsrdə 34 hərfdən ibarət Ortaq Türk Əlifbası haqqında razılıq əldə olunmasına yol açmış oldu. İndi isə türkdilli xalqlar arasında ortaq yazı prinsipi artıq xəyal deyil, bir gerçəklikdir.

NƏTİCƏ

Aparılan araşdırma göstərir ki, Mirzə Fətəli Axundzadənin əlifba islahatı ilə bağlı fəaliyyəti onun maarifçilik və modernləşmə ideyalarının mühüm istiqamətlərindən birini təşkil etmişdir. Mütəfəkkir ərəb qrafikasının Azərbaycan dilinin fonetik xüsusiyyətlərini tam əks etdirmədiyini əsaslandıraraq yazı sisteminin sadələşdirilməsini, fonetik prinsiplər əsasında təkmilləşdirilməsini və savadlanmanın asanlaşdırılmasını qarşıya məqsəd qoymuşdur.

AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan M.F.Axundzadənin şəxsi arxiv fondundakı materiallar onun əlifba islahatı ilə bağlı fəaliyyətinin öyrənilməsi baxımından mühüm ilkin mənbə bazasıdır. Fondda saxlanılan əlifba layihələri, qrammatika qaydaları, məktublar və digər sənədlər Mirzə Fətəlinin bu sahədə ardıcıl və sistemli fəaliyyətini əks etdirir.

M.F.Axundzadənin layihələri dövründə qəbul edilməsə də, onun irəli sürdüyü ideyalar sonrakı dövrlərdə türk xalqlarının yazı sistemlərinin yeniləşdirilməsi istiqamətində aparılan müzakirələrə təsir göstərmişdir. 1926-cı ildə keçirilmiş Birinci Türkoloji Qurultayda latın qrafikalı əlifbaya keçidlə bağlı müzakirələr, 1929-cu ildə Azərbaycanda latın qrafikasının tətbiqi, daha sonra 1939-cu ildə kiril əlifbasına keçid və müstəqillik dövründə latın qrafikasına qayıdış əlifba məsələsinin Azərbaycan dilinin və mədəniyyətinin inkişafında mühüm yer tutduğunu göstərir. Hazırda türk xalqlarının vahid əlifbadan istifadə haqqında razılığa gəlmələri bu mühüm başlanğıcın uğurlu yekunudur.

Beləliklə, M.F.Axundzadənin əlifba islahatı ideyaları yalnız XIX əsrin konkret tarixi şəraiti ilə məhdudlaşmayan, Azərbaycan dilinin, yazı mədəniyyətinin və maarifçilik düşüncəsinin inkişafına uzunmüddətli təsir göstərən mühüm intellektual təşəbbüs kimi qiymətləndirilə bilər. Onun şəxsi arxivində qorunan materialların elmi dövriyyəyə daha geniş şəkildə daxil edilməsi isə M.F.Axundzadənin əlifba islahatı konsepsiyasının müxtəlif mərhələlərinin daha dərindən araşdırılmasına imkan verəcəkdir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Axundzadə, M.F. Əsgərxan bəyə məktub (1858-ci il) // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.110, – 2 vərəq.
2. Axundzadə, M.F. Mirzə Yaqubxana məktub (1858-ci il) // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.110, – 2 vərəq.
3. Axundzadə, M.F. Rusiyanın Konstantinopoldakı nümayəndəsinə // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.206, – 1 vərəq.
4. Axundzadə, M.F. Yeni əlifba ilə əlaqədar qrammatika qanunları və onun öyrənilməsi qaydaları // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.38, – 8+1 vərəq.
5. Axundzadə, M.F. Yeni əlifba layihəsi (1857-ci il) // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.447, – 29 vərəq.
6. Axundzadə, M.F. Yeni əlifba layihəsi (1857-ci il) // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.34, – 3+3 vərəq.
7. Axundzadə, M.F. Yeni əlifba layihəsi // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.44, – 16+2+2 vərəq.
8. Axundzadə, M.F. Yeni əlifba layihəsi // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.41, – 31 vərəq.
9. Axundzadə, M.F. Yeni əlifbanın sonuncu layihəsi // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.43, – 33 vərəq.
10. Axundzadə, M.F. Yeni əlifbanın yazılışında qrammatika qaydaları // AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun şəxsi arxivi, Fond № 2, s.v.119, – 11+ 1 vərəq.
11. İbrahimov, A. Mirzə Fətəli Axundzadə arxivinin izahlı təsviri / A.İbrahimov. M.Məmmədova – Bakı: Elm və təhsil, – 2012. – 579 s.
12. İsmayılova, M. I Türkoloji Qurultayın Türk xalqlarının inkişafı və elmi-mədəni inteqrasiyasında rolu // "Kompyuter

lıngvıstıkası: muammolar, yechım, ıstıqbollar" VI Respublikailmiy-amaliykonferensiya, – Toshkent, – 2026, vol 1, № 01, – s.573-582.
13. Səmədova, N. Mirzə Fətəli Axundzadənin şəxsi arxivi // – Bakı: AMEA, Filologiya və sənətşünaslıq, – 2023. № 1, – s.38-41.
14. Vahabova, S. M.F.Axundzadənin əlifba islahatı: türk dünyasında dil və kültür birliyi // – Rize: Türk Dili ve Edebiyatı Bölümü Dergisi, – 2025. № 6/1, – s.20-36.

MIRZA FATALI AKHUNDZADEH'S NEW ALPHABET PROJECT (BASED ON PERSONAL ARCHIVAL MATERIALS OF THE INSTITUTE OF MANUSCRIPTS NAMED AFTER MUHAMMAD FUZULI OF ANAS)

Oruj Islam Guliyev
Doctor of Philosophy in History,
Deputy Director of the Central Scientific Library,
Doctoral student at the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS

SUMMARY

This article examines the activities and ideas concerning alphabet reform proposed by Mirza Fatali Akhundzadeh, a prominent representative of the 19th-century Azerbaijani Enlightenment movement. The study analyzes, as primary sources, the draft alphabets, grammatical rules, correspondence letters, and other documents preserved in M. F. Akhundzadeh's personal archival collection No. 2 at the Institute of Manuscripts named after Muhammad Fuzuli of the Azerbaijan National Academy of Sciences (ANAS). The research explores the principles put forward by M. F. Akhundzadeh aimed at adapting the Arabic script to the phonetic characteristics of the Azerbaijani language, simplifying the writing system, and facilitating literacy acquisition. Furthermore, the article establishes the relationship between these alphabet reform initiatives and the script issues discussed at the First Turkological Congress held in 1926, as well as the alphabet transitions that took place in Azerbaijan throughout the 20th century. The findings of the research demonstrate that M. F. Akhundzadeh's alphabet reform ideas were not merely an initiative aimed at resolving the writing problems of the period, but also constituted an integral component of his broader concept of enlightenment, literacy, and cultural modernization. The documents preserved in his personal archive hold significant scientific value for examining the stages of formation and evolution of these ideas.

Keywords: *Mirza Fatali Akhundzadeh, personal archive, alphabet reform, Arabic script, Latin script, new alphabet.*

ПРОЕКТ НОВОГО АЛФАВИТА МИРЗЫ ФАТАЛИ АХУНДЗАДЕ (НА ОСНОВЕ МАТЕРИАЛОВ ЛИЧНОГО АРХИВА ИНСТИТУТА РУКОПИСЕЙ ИМЕНИ МУХАММЕДА ФИЗУЛИ НАНА)

Орудж Ислам Гулиев
Кандидат исторических наук,
заместитель директора Центральной Научной Библиотеки,
докторант Института рукописей им. Мухаммада Фузули, Национальная Академия Наук Азербайджана

РЕЗЮМЕ

В статье исследуются деятельность и идеи видного представителя азербайджанского просветительского движения XIX века Мирзы Фатали Ахундзаде в области реформы алфавита. В качестве основного источника исследования к анализу привлечены проекты алфавита, грамматические правила, переписка по данной теме и другие документы, хранящиеся в личном архивном фонде № 2 М. Ф. Ахундзаде в Институте рукописей имени Мухаммеда Физули НАНА. В работе рассматриваются выдвинутые М. Ф. Ахундзаде принципы, направленные на адаптацию арабской графики к фонетическим особенностям азербайджанского языка, упрощение системы письма и облегчение процесса обучения грамоте. В статье также выявляется связь данных инициатив по реформированию алфавита с вопросами, обсуждавшимися на Первом тюркологическом курултае 1926 года, и последующими изменениями алфавита в Азербайджане в XX веке. Результаты исследования показывают, что идеи М. Ф. Ахундзаде по реформе алфавита являлись не просто инициативой, направленной на решение письменных проблем эпохи, но и важной составной частью концепции просветительства, ликвидации неграмотности и культурной модернизации. Документы, сохранившиеся в его личном архиве, представляют значительную на-

учную ценность с точки зрения изучения этапов формирования и развития этих идей.

Ключевые слова: *Мирза Фатали Ахундзаде, личный архив, реформа алфавита, арабский алфавит, латинская графика, новый алфавит.*

Rəyçi: Tarix elmləri doktoru, dosent
Tahirə Dadaş qızı Həsənzadə

Məqalə redaksiyaya daxil olub: 02.07.2026
Çapa qəbul olunub: 03.08.2026
The date of the admission of the article to the editorial office: 02.07.2026
Accepted for publication: 03.08.2026